## UŞAQLIĞIM

Sanki uşaqlığım qızıl balıqdı,
Əlimdən sürüşüb sulara düşdü.
Sahildə vurnuxa-vurnuxa qaldım,
Könlüm min sorğuya, suala düşdü.

Dolaşdım xatirə küçələrində,
"Geri dönən deyil, getdi" dedilər.
Ana südü kimi kəsildi o da,
"Cırtdan" nağılıtək bitdi dedilər.

Onda ad günlərim şad günlərimdi,
Sevincim, fərəhim aşıb-daşırdı.
Demə, hay-haraylı bayramlarımla
Məndən uşaqlığım uzaqlaşırdı.

Gündə "dava-dava" oynamaq mənə
Ən yaxşı məşq idi, ən sevimli iş.
Bilməzdim, illərcə bitmək bilməyən
Davalı günlərim qabaqda imiş.

İndi ad günümdə qəhərlənirəm,
Təbrik edənlərə tutur acığım.
Qayğısız çağlarım hava şarıtək
Çıxıb, birdəfəlik əlimdən çıxıb.

Onda həyatımın min rəngi vardı,
Həsrət sarısını geyirəm indi.
Baxıb o illərin şəkillərinə
Eynəkli gözümü döyürəm indi.

Hərdən uşaqlığım tutsa da yenə,
Dəli dəcəlliyim çəkir bircə an...
Məni qınayanlar nə bilsin axı,
Doya bilməmişəm uşaqlığımdan.

Vardı sayagəlməz oyuncaqlarım,
Canlı oyuncağam indi mən özüm.
Hardasa ağlayan uşaq görəndə
Ağrıyır ürəyim, yaşarır gözüm.

O qatar geriyə qayıdan deyil,
Nəvələr könlümü alır yaxşı ki!
Uşaqlıq xoşbəxtlik adası kimi
Yaddaş xəritəmdə qalır yaxşı ki!

## YAŞAT, AY ALLAH!

İlləri xərcləyib xırda pul kimi,
Sərilib qalmışam yerdə çul kimi.
Sənə baş əyirəm burda qul kimi -
Sən məni bir az da yaşat, ay Allah!

Gülləni atmışam, gilizim qalıb,
Min günah üstündə əl izim qalıb.
Qızıla dönəsi filizim qalıb,
Sən məni bir az da yaşat, ay Allah!

Həsrət gözlərimə qaranlıq çöküb,
Məni cövrü-cəfa bəndi-bənd söküb.
Ölünü dirildər Allahın görkü,
Sən məni bir az da yaşat, ay Allah!

Bir yar istəmişdim səndən aşağı,
Qoymadı kam alım zalım uşağı.
Hələ də gözümdən qanlı yaş axır,
Sən məni bir az da yaşat, ay Allah!

Millətin birinci kövrəyi mənəm -
Özün veribsən bu ürəyi mənə.
Çox görmə Şuşanı görməyi mənə,
Sən məni bir az da yaşat, ay Allah!

Sərhədim, sınırım, sökülü qalıb,
Özgələr əlində öz gülüm qalıb,
Öldürmə, gör neçə müşkülüm qalıb,
Sən məni bir az da yaşat, ay Allah!

Görüm nifrət ölüb, kin yaddan çıxıb,
Şeytan itkin düşüb, cin yaddan çıxıb,
Nankorun güldüyü gün yaddan çıxıb,
Sən məni bir az da yaşat, ay Allah!

Gəlib, dərgahına uzatmışam əl,
Sən ən qüdrətlisən, sən ən mükəmməl!
Muradıma yetim ölməzdən əvvəl,
Sən məni bir az da yaşat, ay Allah!

Əliyəm, bağlıyam ürəkdən sənə,
Salam göndərirəm küləkdən sənə.
Ən böyük arxasan, dirəksən mənə,
Sən məni bir az da yaşat, ay Allah!

## SƏN BÜTÖV OLANDA...

Gəl, bunca özünü aldatma, bəsdi,
Bir az aşağı düş o mərtəbədən.
Sənə həmişəlik verilməyib ki,
O şəlalə tellər, o büllur bədən.

İşvəndən, nazından bayılıb şəhər,
Göyçək ağızlarda adın hallanır.
Üstündən, başından gedəsi deyil
Tozu, tozanağı əyri yolların.

İpəkdə, qumaşda cilvələnirsən,
Qamaşan gözlərdi hədəfin hələ.
Səni soyuqluğu üşütməyibdi
Mərcanın, incinin, sədəfin hələ.

Güzgülər önündə tumarlan, bəzən,
Tərif yağdıranın, söz deyənin var.
Evdə həsrətini çəkən yoxsa da,
Tinlərin başında gözləyənin var.

Çox da hər gününü, hər saatını
Güldürür kef-damaq səfası hələ,
Sənin gəncliyinlə qocalığının
Öndədi amansız davası hələ.

İlbəil dəyərin, əyarın düşür,
Bulanıq sularda titrəyir əksin.
Axır aqibəti indidən düşün,
Kimsən olacaqmı dərdini çəksin?

Söndümü qəlbinin atəşi, odu,
Özgə şam gəzəcək pərvanələrin.
Çevrən boşalacaq, gözün dolacaq,
İt-bata düşəcək divanələrin.

Gündə sərgiləyib gözəlliyini,
Boyundan yuxarı boylanma, gözəl.
Sən bütöv olanda əlçatmaz idin,
Dilim-dilim olub paylanma, gözəl.

## TAPMADIM SƏNİ

Sən mənim bəxtimə yazılan sürgün,
Sevgim-sevincimdin, ağrım-acımdın.
Ölüb-dirilirdim səninçün hər gün,
Sən mənim yaşamaq ehtiyacımdın.

Mən elə bilirdim, elə bilirdim,
Sən mənsən, mən sənəm, sənəm, ay sənəm.
Adında səslənib süslənən gülün
Ətrinə bələnmiş arıya tənəm.

Bir gün yoxa çıxdın, qeybə çəkildin,
Səni göydə gəzdim, yerdə aradım.
Yeddilər üstündə dua eyləyib,
Qurban boyun oldum, pirdə aradım.

...Ay ötüb, il ötüb, olan olubdu,
De, hansı şəhərdə, hansı kənddəsən?
Şükür eyləyirsən Allaha, yoxsa,
Sən də mənim təki qıfılbənddəsən?

Yığıb aparmısan olan-olmazı,
Təkcə xatirələr gözündən qaçıb.
Deyə də bilmirəm yaxına, yada:
Yar mənə verdiyi sözündən qaçıb.

Nağılmı danışım: biri varıydı...
Neyləyim mən başı daşlı bəs indi?
Harda olursan-ol, xəbərdar eylə,
Bircə sorağını alsam, bəsimdi.



Əli NƏCƏFXANLI

12 yanvar 2019

WWW.KASPI.AZ